Azərbaycan Kapital Bazarları Assosiasiyası

# AKBA Komitə Reqlamenti

Məzmun:


1. Ümumi müddəalar
2. Komitənin tərkibi, təyin olunması, səlahiyyətlərinin dayandırılması və Sədrin rolu
3. Komitə Sədrinin funksiyaları
4. Komitə Kuratorunun funksiyaları
5. Komitə iclasları və Komitənin fəaliyyəti
6. Konfidensiallıq
7. Maraqların toqquşması
8. Digər məsələlər


## 1. Ümumi müddəalar

Hazırkı Reqlament AKBA Komitələrinin (bundan sonra – "Komitə") fəaliyyətini, idarəetməsini, hüquq və vəzifələrini və iş prosesini tənzimləyir. Komitə Palatanın Direktorlar Şurası (bundan sonra – "Şura") tərəfindən yaradılır və Şura qarşısında cavabdehlik daşıyır. Komitənin fəaliyyəti AKBA-nın Nizamnaməsinə, bu Reqlamentə və Direktorlar Şurasının bəyan edilmiş qərarlarına uyğun olaraq müəyyən edilir. Komitələr Azərbaycan kapital bazarlarının müxtəlif sahələrini təmsil edir və requlyator, məsul dövlət orqanları ilə məhsuldar dialoq aparmaq, sektorun inkişafına və islahatlara öz mümkün səlahiyyətləri daxilində dəstək vermək üçün fəaliyyət göstərir. Üzvlərin maraqları nəzərə alınmaqla, Komitə AKBA-nın fəaliyyəti ilə bağlı konkret məsələlərlə məşğul olur, Şuranın qərarı ilə yaradılır, formalaşdırılır və ya ləğv edilir.

## 2. Komitənin tərkibi, təyin olunması, səlahiyyətlərinin dayandırılması, Sədrin və Kuratorun rolu

Komitənin tərkibi AKBA üzvlərinin nümayəndələrindən formalaşır.

Komitəyə Komitə Sədri rəhbərlik edir. Komitə sədri Komitənin səlahiyyətlərinə aid olan məsələlərdə müvafiq ixtisasa və zəruri təcrübəyə malik olmalıdır. Komitə Sədri AKBA Direktorlar Şurasının müvafiq qərarına əsasən Şuranın sədri tərəfindən üç (3) il müddətinə təyin olunur. Səlahiyyət müddəti bitdikdən sonra Komitə sədri yenidən vəzifəyə təyin oluna bilər.

Komitənin Sədrinin səlahiyyətlərinə aşağıdakı hallarda xitam verilə bilər:

- Səlahiyyət müddəti bitdikdə;
- Səlahiyyət müddəti bitməmiş, bir (1 ay) öncədən Şuranın sədrinə vəzifədən azad olunma istəyi barədə yazılı bildiriş verməklə;

- Altı (6) ay müddəti ərzində dalbadal 4 Komitə iclasına qatılmadıqda;
- AKBA-nın Nizamnaməsini və ya digər qaydalarını pozduqda. Bu halda Şuranın sədri səlahiyyətlərin ləğvi barədə qərar verir və Şuranı məlumatlandırır.
- Təmsil etdiyi qurum AKBA üzvlüyündən çıxdıqda və ya Komitə sədri ilə AKBA üzvü arasında məşğulluq və ya mülki-hüquqi xarakterli müqavilə münasibəti bitdikdə.

## 3. Komitə Sədrinin funksiyaları:

- Komitəyə rəhbərlik və sədrlik etmək;
- AKBA-nın ehtiyaclarına uyğun olaraq müvafiq mövzuların müzakirəsini təşkil etmək;
- Aktual mövzuların müzakirəsinə zərurət yarandığı hallarda aidiyyəti qonaq iştirakçıları dəvət etmək;
- Komitənin işi ilə bağlı kuratorlar və zərurət olduqda Şura ilə yaxından əməkdaşlıq etmək;
- Komitənin əhatə dairəsinə aid müvafiq təklif və sorğuları özündə əks etdirən sənədlərin hazırlanmasında iştirak etmək və bu prosesə rəhbərlik etmək;
- Komitə daxilində müxtəlif İşçi Qrupları yaratmaq;
- Şura ilə koordinasiya əsasında Komitənin səlahiyyətləri çərçivəsində digər funksiyaları həyata keçirmək.

## 4. Komitə Kuratorunun funksiyaları:

- Kurator hər bir Komitəyə təyin olunmuş Direktorlar Şurasının üzvüdür.
- Kuratorun rolu Komitənin işinə və xüsusi ilə Komitə sədrinə strateji dəstək, yönləndirmə və konsultasiya təmin etməkdir.
- Kurator Direktorlar Şurasındakı bütün səlahiyyət müddəti ərzində Komitəyə kuratorluq edir və Direktorlar Şurasının qərarı ilə təyin edilir.
- Kurator Komitə iclaslarından yaxud Komitə sədrindən əldə etdiyi məlumatlar əsasında Komitənin ehtiyaclarını Şuraya çatdırır.
- Kurator öz bilik və təcrübəsi ilə Komitənin fəaliyyətinə kömək edir.
- Kurator Komitə tərəfindən hazırlanan sənədlərə baxır və onlara dair rəy bildirir.

## 5. Komitə iclasları və Komitənin fəaliyyəti

- Komitə iclaslarında müzakirəyə çıxarılan mövzulara Komitə sədri qərar verir.

- AKBA-nın icraçı direktoru AKBA-nın bütün Komitələrinin səsvermə hüququ olmayan üzvüdür və AKBA üzvləri ilə Komitələr, eləcə də üçüncü tərəflər arasında əsas əlaqələndirici şəxsdir.
- Komitə onlara tapşırılan və ya öz qərarı ilə müvafiq layihələri, sənədləri və sorğuları araşdırır və hazırlayır.
- Komitə tərəfindən hazırlanan sənədlər, layihələr, aparılmış araşdırmalar AKBA adından hazırlanır və Komitə üzvlərinin fərdi hallarda xüsusi vurğulanmasına yol verilmir. Belə sənədlərlə əlaqədar müzakirələr, görüşlər və s. zəruri olduqda, müvafiq rəy müəllifinin bu tədbirlərdə iştirakı Komitə Sədri tərəfindən təmin edilir.
- Hər bir Komitə ayda 1 dəfədən az olmamaqla istədiyi tezlikdə iclas keçirə bilər (Direktorlar Şurasının qərarı ilə bu qaydaya dəyişikliklər edilə bilər).
- Komitə iclasları Komitə sədri tərəfindən çağırılır.
- Təcili hallarda Komitənin istənilən üzvü iclas çağıra bilər. Belə sorğu Komitə sədrinə edilir və Komitə sədrinin qərarı ilə imtina edilə bilər.
- İclaslar canlı toplantı və ya onlayn formatda keçirilə bilər. İclasların həyata keçirilməsinin təşkilati dəstək AKBA tərəfindən təmin edilir.
- İclaslara Komitə sədri sədrlik edir, onun iştirakı mümkün olmadıqda, onun yaxud AKBA icraçı direktorunun təyin etdiyi şəxs tərəfindən sədrlik həyata keçirilir.
- Komitənin iclasları zəruri hallarda müvafiq mövqe sənədi ilə yekunlaşdırılır və bu mövqe sənədi Kuratora təqdim edilir.
- Mövqe sənədinin hazırlanması hər bir iclas bitdikdən sonra 5 iş günü ərzində həyata keçirilir.
- Mövqe sənədinin hazırlanması Komitə Sədri tərəfindən Komitə üzvlərinin hər hansı birinə həvalə edilə bilər.

## 6. Konfidensiallıq

Bütün Komitə üzvləri məxfilik və sirr təşkil edən məlumatların gizliliyini qoruyur. Vəzifələrini həyata keçirərkən əldə etdikləri bütün məlumatların, dataların, hesabatların və s. müvafiq informasiyanın məxfiliyi qorunur və üçüncü tərəflərə ötürülmür.

## 7. Maraqların toqquşması

- Maraqlar toqquşması rəqabət aparan maraqların və ya loyallıqların Komitələrin qərarına və ya fəaliyyətinə potensial olaraq qeyri-adekvat təsir göstərə biləcəyi və/və ya AKBA və ya onun bir və ya bir neçə üzvünə zərər vura biləcəyi vəziyyətdir.

- Komitə sədri və üzvü AKBA-daxili fəaliyyəti çərçivəsində AKBA-nın və sektorun maraqlarını çalışdığı üzv şirkətin maraqları ilə bir tutur. Maraqlar toqquşması baş verdiyi hallarda bunu Direktorlar Şurasına və ya Şuranın Sədrinə bəyan edərək, özünü həmin məsələ üzrə müzakirə və qərarvermə prosesindən kənarlaşdırır.

- Komitənin sədri və üzvləri onların şəxsi və/və ya korporativ maraqlarının, habelə müştərilərinin müstəsna mənafelərinin Komitənin gündəliyinə və/və ya fəaliyyətinə təsir göstərməsinə yol verməməlidir.

- Komitədəki fəaliyyəti çərçivəsində Komitə sədri və üzvü bilə-bilə digər AKBA üzvlərinin maraqlarına xələl gətirməməli və/və ya təmsil etdikləri şirkətlərin rəqibləri üçün maneələr yaratmamalıdır. Belə ehtimal olduqda, o, bunu Direktorlar Şurasına və ya Sədrinə bəyan edərək özünü həmin məsələ üzrə müzakirə və qərarvermə prosesindən kənarlaşdırır.

- Komitə sədri və üzvləri bilə bilə digər AKBA üzvlərinin maraqlarına xələl gətirən və/və ya təmsil etdikləri şirkətləin rəqibləri üçün maneələr yaradılması halı olarsa, belə qərar vermə prosesindən bəyan edilməklə, özlərini kənarlaşdırmalıdırlar.

- Komitə sədri təqdimat fayllarında şirkətlərin loqolarını göstərməklə və/və ya digər reklam materiallarından habelə iş fəaliyyətində hazırlanan sənədlərdə və ya materiallarda Komitənin ümumi fəaliyyətini fərdiləşdirən hallardan istifadə etməklə təmsil etdiyi şirkətlərin görünürlüyünü və/və ya korporativ brendini təbliğ etməməli, habelə digər Komitə üzvlərinin bunu etməsinin qarşısını almalıdır.

## 8. Digər məsələlər

- AKBA hər cari il üzrə  Komitənin fəaliyyətində fərqlənən Komitə üzvlərinin təlim və tədrisinin artırılmasına dəstək göstərmək məqsədilə, xaricə işgüzar səfər, habelə xarici seminar və konfranslarda fiziki iştiraklar təşkil etməyə və bu prosesin xərclərini qarşılamağa çalışır. AKBA bu prosesləri, eyni zamanda digər mümkün mükafatlandırmaları həyata keçirmək istiqamətində müvafiq imkanları daim diqqətdə saxlayır.

- Komitənin sədri və üzvləri işlərində maddi ve ya qeyri-maddi individual fayda üçün deyil, kollektiv fayda üçün çalışacaqlarını qəbul edirlər. AKBA Komitə üzvlərinin Assosiasiyadan kənarda AKBA-dakı işinə görə şöhrət qazanmasına etiraz etmir, lakin bu niyyətlə Assosiasiya tərəfindən hər hansı addımların atılması tələb oluna bilməz.

- Komitədə hər AKBA üzvündən yalnız bir nümayəndənin səsvermə hüququ var.

**+994 51 251 43 99**
Ə. Quliyev 11/31, Babək Plaza, 7-ci mərtəbə
akba.az